*XV əsrin sonuna 30 ildən də az vaxt qalmışdı. Artıq Ağqoyunlular dövlətinin kifayət qədər güclü olduğunu Osmanlı hökmdarı II Mehmet də yaxşı bilirdi. Qərbi hakimiyyət dairələri, xüsusilə də, Roma Papası ilə apardığı danışıqlarda, göndərdiyi məktublarda, aldığı cavablarda Uzun Həsənin gələcəkdə nəinki Osmanlılara, eləcə də, bütün Qərbə təhlükə olduğu vurğulanırdı. İş burasında idi ki, belə bir yazışma və gizli get-gəllər Avropa ilə Uzun Həsən arasında da davam edirdi. Onlar Uzun Həsəni gizli xəfiyyələri ilə Osmanlılara qarşı nifrətə, qəzəbə yönəldir, aradakı münasibəti qızışdırırdılar. Şərqi Anadolu əraziləri tarixən mənəvi iqtisadi baxımdan Azərbaycana nə qədər yaxın olsa da, Osmanlı hökmdarları bunu qətiyyən qəbul etmək istəmirdilər. Həm də Osmanlı hakimlərinin diqqətində belə bir əsas məsələ dayanırdı ki, əgər Ağqoyunlular Anadoluya nəzarəti bütövlükdə ələ keçirsələr, Osmanlı ərazilərini daim təhlükə altında saxlayacaqdılar. Əslində, Ağqoyunluların Osmanlılar ərazisinə heç bir iddiaları yox idi. Sadəcə, məsələni bu yerə Qərbin siyasi dairələrinin aramsız təbliğatı və qızışdırıcı münasibətləri gətirib çıxarmışdı.*

*Sultan II Mehmetə o da məlum idi ki, Ağqoyunlu hökmdarının ölkədə əsas dayağı Ərdəbil şeyxlərinin ətrafında toplanan qüvvələrdir. Hələ ki, o, heç bir vasitə ilə bu əqidəli insanları Ağqoyunlular sülaləsinin üstünə qaldıra bilmirdi. O, bilirdi ki, nə qədər Ağqoyunlular sülaləsinə əqidə və inamla inanırlar, demək, bu sülalə öz sütunlarının gücünü, qüdrətini axıracan qoruya biləcək. Ancaq başqa bir yol da var idi; bu da sülalənin özünə məxsus olan adamların mənəvi mühitinə yol tapmaq, onların hakimiyyət iştahalarından bəhrələnmək. Bu məsələ Sultan II Mehmet üçün Uzun Həsəni zəiflətmək yolunda əsas amil ola bilərdi.*



***Hüseynbala MİRƏLƏMOV***

# İKİ ŞAH, İKİ SULTAN

## (romandan parçalar)

**(Əvvəli ötən saylarımızda)**

Bütün zamanlarda hakimiyyətə müxalif olan, hakimiyyətdən narazı olan qüvvələr var. Özünü ön plana çıxarmayan, III qüvvələr də var ki, onlar narazıların gücündən həmişə faydalanmağa çalışıblar. Elə bu səbəbdən də Sultan II Mehmet Uzun Həsəndən narazı olanlara çox həvəslə qucaq açır, onlara qayğı göstərir, ərazi hakimiyyəti verir, qohumluq əlaqəsi qurur... Beləliklə, Uzun Həsəni qüvvədən salmaq üçün onları Ağqoyunlular üzərinə yönəldirdi. Sultan II Mehmet yaxşı bilirdi ki, bu qüvvələrlə Ağqoyunluları məğlub etmək, nəticədə onların taxtlarını başlarına uçurmaq mümkün deyildi, amma siyasi düşüncədən kasad olan, təcrübəsiz, iddialı cavanlar Sultan II Mehmetin hiylə toruna çox asanlıqla düşürdülər.

Şübhəsiz, Uzun Həsənin övladları arasında da get-gedə dərinləşməkdə olan nifaq, nəhayət, siyasi rəqabətə gətirib çıxardı. Təbriz civarları arxasında məğlub olan Uğurlu Məhəmməd Mirzə Sultan II Mehmetin sarayında çox hörmətlə qarşılandı. Sultan II Mehmet Uğurlu Məhəmməd Mirzəni divanda çox vaxt dizinin dibində oturdurdu. Doğrudur, məxfi məsələləri ona açmasa da, onun ciddi əhəmiyyəti olmayan məsələlərin müzakirəsində Uğurlu Məhəmməd Mirzə daim iştirak edirdi. Bununla da hökmdar Uzun Həsənin narazı olan digər oğullarına da çatdırırdı ki, onların gələcəyi həm də parlaq gələcəyi Sultan II Mehmetdən asılıdır.

Sultan II Mehmet Uğurlu Məhəmməd Mirzəyə qızını verməklə, çox möhtəşəm bir toy elədi. Toya ətraf ərazilərin hakimləri Ağqoyunluların nəzarətində olsa da, bir çox bölgələrin narazı hakimləri də dəvət olunmuşdu. Əlbəttə ki, Uğurlu Məhəmməd Mirzənin atasından narazı olan qardaşları da toyda iştirak edirdilər. Onların hər biri ilə Sultan II Mehmet müntəzəm görüşür, onlara qayğı göstərir, düşüncə meyillərini, hərbi istedad və bacarıqlarını öyrənməyə çalışırdı. Sultan II Mehmet insan münasibətlərindən yaxşı baş çıxarırdı. Xüsusilə, hakimiyyət iddiasının insanın varlığında nəyə qadir olduğunu yaxşı bilirdi. Qızını Uğurlu Məhəmməd Mirzəyə verməklə də, uzaq keçmişlə bağlı niyyətlərinin əsaslı bünövrəsini qoymaq istəyirdi. O, istəyirdi ki, gələcəkdə Uğurlu Məhəmməd Mirzəyə elə bir yol açsın ki, bu yolla o, Ağqoyunlular taxtına sahiblənmək istəyini başa çatdırsın. Və onun vasitəsilə Ağqoyunluları özünün nəzarəti altına alsın. Bir sözlə, Ağqoyunlular dövləti siyasi, hərbi, iqtisadi baxımdan ikinci dərəcəli bir siyasi mərkəz olmaqdan o tərəfə keçməsin. Əgər tarixin bir az da irəli tərəfinə addımlamalı olsaq, görəcəyik ki, Sultan II Mehmetin bu düşüncələrinin kifayət qədər əsası varmış. Çünki həmin uzaq gələcəkdə Sultan II Mehmetin qızı ilə Uğurlu Məhəmməd Mirzənin izdivacından dünyaya gələn Əhməd adlı nəvəsi Ağqoyunlu taxtına gəlib çatmışdı. Onun adına tarixdə "Gödək Əhməd" deyirdilər. Qolları qısa, boyca gödək olan Əhməd ana tərəfdən babası Sultan II Mehmetin tərbiyəsi ilə böyümüşdü. Və demək, onun istəklərini də yerinə yetirməli olacaqdı. Ancaq bu zamana xeyli vardı. Hələ zamanın o vaxtıdır ki, Uzun Həsən öz taxtında güclüdür, müxalif olan oğlanları atalarına və dövlətə xəyanət eləsələr də, təbiət etibarilə mətin olan Uzun Həsəni bu olaylar sarsıda bilməmişdi.

Uzun Həsənin Uğurlu Məhəmməd Mirzədən sonrakı oğlu Yadigar Mirzə daha çox hökmdarın diqqətini cəlb eləmişdi. Onun hərb elmindən kifayət qədər baş çıxardığını bildən sonra, bir gün ayrıca yanına çağırdı:

- Şöhrətli hökmdar Uzun Həsənin oğluna layiq deyil axı boş-bekar qalsın. - Sultan II Mehmet nağıllardakı kimi hiylə niqabını üzünə çəkmişdi. Uzaq gələcəkdəki niyyətini bu niqabın altında gizləyərək Yadigar Mirzəyə çox məhrəmliklə ünsiyyət göstərdi.

- Böyük hökmdarın kölgəsində yaşamaq özü də böyük şöhrətdir - Yadigar Mirzə cavab verdi.

- Hər halda kölgədə yaşamaq Yadigar Mirzə kimi bir şahzadəyə rəva deyil. Sultan II Mehmet bununla Yadigar Mirzənin mövcud duruma münasibətini bilmək istəmişdi.

Ancaq Yadigar Mirzə də nəyəsə can atdığını belə tezliklə bildirmək istəmədi. Hökmdara təmkinlə cavab verdi: - Sultan II Mehmet kimi bir hökmdarın kölgəsində olmaq Allahın himayəsində olmaq deməkdir. Mənim kimi bəxt sarıdan yarımayanlara bu da çox böyük paydır.

Sultan II Mehmet gördü ki, yox, Yadigar Mirzə kifayət qədər yetkin və hazırcavabdır. Daha məsələni açıqlamaq yerinə düşərdi. Ona görə də dedi:

- Bu gündən mən səni Sivas əyalətinə hakim təyin eləyirəm. Əyalətin bütün işlərini təcili qaydaya qoyursan. Ağqoyunlulara rəğbəti olan şəxsləri əyalətin hakimliyindən uzaqlaşdırarsan.

- Çox məmnunam, hökmdar - Yadigar Mirzə yenə təzim elədi.

Hökmdar əlini yuxarı qaldırdı. Bu o demək idi ki, diqqətlə qulaq as.

- Qədərincə hərbi qüvvəyə sahib olmasan, heç bir istəyini gerçəkləşdirə bilməzsən. Özün yaxşı bilirsən ki, Ağqoyunlu hökmdarı - atan Uzun Həsən böyük dövlət qurub. Sən gərək razı olmayasan ki, gələcəkdə bu dövlətin başında Ərdəbil şeyxlərinin törəmələri dayansınlar.

- Bəli, bəli, hökmdar çox doğru buyurur - Yadigar Mirzə dili-dodağı təpilmiş cavab verdi. Elə bil ki, elə indicə Ağqoyunlular taxtına Şeyx Heydər sahib olacaq. O da qıraqdan durub baxmaqla kifayətlənəcək. Bir az geciksə, hər şey onun əlindən çıxacaq. - Mən qətiyyən razı ola bilmərəm ki, Ərdəbil şeyxlərinin törəmələri Bayandırlar nəslinin haqqını ələ keçirsin.

Sultan II Mehmet özünü saxlaya bilməyib güldü və bu, həm də onun sevincinin əlaməti idi. Çünki atdığı oxlar hədəfə dəymiş, oğulu atanın üstünə göndərməyə əməlli-başlı hazırlamışdı. Ona görə də bir növ sonuncu məqam kimi daha vacib olan məsələləri də xatırlatmalı oldu.

- Qardaşın Uğurlu Məhəmməd Mirzə, sizin Bayandırlar nəslinin Ağqoyunlular taxtından narazı olan qüvvələri də çağırıb özünə birləşdirməlisən. Çünki nə qədər belə adamları çox toplaya bilsən, əhalinin inamını bir o qədər də çox qazana bilərsən. Yaxşı bilirsən ki, hakimiyyəti ələ almaq, onu möhkəmləndirmək qoruyub saxlamaq asanlıqla başa gəlmir. Bunun üçün gərək insanların inamını qazanasan.

- Bu yolda hökmdar mənim üçün ən böyük işıqdır. Mən onun necə böyük sima olduğunu və Allaha necə güvəndiyini görürəm. Mən isə bu yolda öz hökmdarıma güvənəcəyəm. Qoy o da öz Allahına güvənməkdə davam eləsin, - Yadigar Mirzə nitqini bitirdi.

Yadigar Mirzə eşitdiyi xəbərdən bir qədər çaşqın oldu. Tez ayağa qalxıb hökmdarın qabağında 3 dəfə təzim elədi. Sultan II Mehmet hiss elədi ki, Yadigar Mirzə onun hökmünün nə qədər doğru olub-olmadığına əmin olmaq üçün təzim eləsə də, tez-tez onun üzünə və gözlərinə baxır.

Hökmdar Yadigar Mirzənin cavanlığından irəli gələn bu çaşqınlığına güclə seziləcək bir təbəssümlə cavab verdi. Asta-asta başını silkələdi. Bu razılıq əlaməti olan başını tərpətmə ilə Yadigar Mirzəyə çatdırdı ki, əmin ola bilər. Amma bununla kifayətlənmədi, hələ də hüzurunda müntəzir dayanan Yadigar Mirzəni başdan-ayağa süzüb bir daha dedi: - Bəli, çox doğru eşitdin. Mən səni Sivasa hakim təyin edirəm. O tərəflərin təhlükəsizlik işlərinə də özün baxacaqsan. Qədimlərdən bizim olub, indi bizim nəzarətimizdən uzaq olan yerlərə də nəzarəti bərpa edərsən.

- Əgər hökmdar mənə köməyini əsirgəməsə, onun bütün hökmlərini Allahın əmri kimi canımın bahasına da olsa, yerinə yetirəcəyəm. - Bu sözləri Yadigar Mirzə bir and kimi təntənə ilə dedi. Hiss olundu ki, onun bu and kimi səslənən təntənəli sözləri hökmdarı çox razı saldı.

- Bəli, bəli hər cür köməklik göstəriləcək. Elə bu gündən qoşun tədarükü üçün xəzinədən sənə qədərincə vəsait ayrılacaq.

- Bəli, bəli, elə də var. Bir Allah şahiddir ki, mən istəyirəm Ağqoyunlular taxtına Bayandırlar nəslinin haqqı olanları çıxsın. Daha böyük bir səltənətin ixtiyarı dərvişlərin əlinə keçməsin.

Sultan II Mehmet "dərvişlərin əlinə keçməsin" deyəndə, Şeyx Heydər və tərəfdarlarını nəzərdə tuturdu. Axı Osmanlı böyükləri Ərdəbilin təriqət adamlarını həmişə istehza ilə dərviş adlandırır, onlara həqiranə bir gözlə baxırdılar.

- Hökmdar nə vaxt buyursa, mən yoldayam, əgər hansı zamandasa fikrimdə bir tərəddüd yaransa, qoy mənim cəzamı uca Allahdan əvvəl hökmdarın ədalət qılıncı versin.

Bu sözlər də Sultan II Mehmeti razı saldı. Ona görə də əlini əlinə vurdu. İçəri girən şəxsə birbaşa göstəriş verdi:

- Mirzələrə deyin ki, hökmdarın Yadigar Mirzə haqqında fərmanını bütün məscidlərdə, əhalinin gur olduğu yerlərdə, bazarlarda hündürdən səsləndirsinlər.

Sultan II Mehmet əli ilə qapını göstərdi:

- İndi get, yaxşı yol. Gördüyün işlər barədə çaparla mənə tez-tez xəbərlər göndər.

Yadigar Mirzə təzim edə-edə geriyə çəkildi və dönüb qapıdan çıxdı. Daha fərqinə varmadı ki, sultan fərmanını onunla görüşdən əvvəl veribmiş.

*(Davamı var)*